Academic Journal of History and Idea Академическая История и Мысль
Akademik Tarih ve Düşünce Dergisi
ISSN: 2148-2292

*Araştırma Makalesi* https://doi.org/10.46868/atdd.130 *Original Article*

# İlyas Əfəndiyevin Hekayələrində Xalq Yaradıcılığının İzləri

**Reyhan Mənəfova***
**ORCİD: 0000-0002-9136-6782**

**Xülasə**

İlyas Əfəndiyev mütəffəkir sənətkardır. Onun yaradıcılığı aydın və dərin fəlsəfəsi xalq mənəviyyatından qidalanır. Çünki İ.Əfəndiyevin yaradıcılığı xalq həyatı fonunda inkişaf edərək öz yolunu tapmışdır. Yazıçının əsərlərində geniş yer tutan xalqımızın milli-mənəvi dəyərlərinin gənc nəslin tərbiyəsində müstəsna rolunun olduğu danılmaz bir faktdır. Bu əsərlərin həm də istər bədii cəhətdən, istərsə də məna yükü etibarı ilə ədəbiyyatın inkişafında müstəsna əhəmiyyətə malik olması yazıçının ruhunun zənginliyindən xəbər verir. İ.Əfəndiyevin daim xalqla iç-içə yaşayan bir sənətkar olması, əsərlərinə xalqın içərisindən qəhrəmanlar seçməsi ilk növbədə onun böyük vətənpərvər olduğunun sübutudur. İ.Əfəndiyev fəlsəfəsinin mayasında dayanan azərbaycançılıq ideyası da bu əsərlərdən aydın görünür. Məqalədə, İlyas Əfəndiyevin xalq yaradıcılığı örnəkləri əsasında yazılmış bəzi hekayələri araşdırılaraq təhlil edilmiş, digər folklor nümunələri ilə müqayisələr aparılmışdır. Məqalədə həmçinin, İlyas Əfəndiyevin hekayələrində milli-mənəvi dəyərlər, xalqın tarixi keçmişinin izlərinin insanların tərbiyəsinə təsiri faktının vacibliyi məsələsi də araşdırılmışdır.

**Açar sözlər:** xalq ənənələri, milli özünüdərk, mənəvi dəyərlər, estetik gözəllik, bədii priyom

**Gönderme Tarihi: 12/05/2021** **Kabul Tarihi:29/08/2021**

---

* *Araştırma Görevlisi, Azərbaycan Milli Elmlər Akademiyası Şəki Regional Elmi Mərkəzi, Şeki- Azerbaycan, b.laborant, mecidova.reyhan@mail.ru*

***Bu makaleyi şu şekilde kaynak gösterebilirsiniz:***
MƏNƏFOVA, R., ''İlyas Əfəndiyevin Hekayələrində Xalq Yaradıcılığının İzləri'', *Akademik Tarih ve Düşünce Dergisi*, C. 8, S. 3, 2021, s.952-967.

© ATDD Tüm Hakları Saklıdır
CC BY

# Traces of folk art in the stories of Ilyas Efendiyev

.

**Reyhan Manafova***
**ORCİD: 0000-0002-9136-6782**

**Abstract**

İlyas Afandiyev is a thoughtful artist. His creativity, clear and deep philosophy were fed from folk morality. Because of the creation of I.Afandiyev developed in the background of the life of people and found its way. It is fact that natural- moral values of our people which have a large place in the works of the writer have an exceptional role in the upbringing of the young generation. Having exceptional importance of these works both artistically and in terms of meaning, informs the richness of his spirit. Being an artist of I.Afandiyev living in harmony with people, and choosing heroes among them are the proves of his great patriotism. The idea of Azerbaijanis stands in the main point of the philosophy of I.Afandiyev was seen clearly. In the article some articles of I.Afandiyev which was written onthe basis of the examples of folk art were analyzed and differentiated from the other folklore samples. It is also explored the issue of the affection fact of the traces of peoples historical past to the upbringing of people.

**Keywords:** Folk traditions, national self-awareness, moral values, aesthetic beauty, artistic method

**Received Date: 12/05/2021** **Accepted Date: 29/08/2021**

---

**Research Assistant, Azerbaijan National Elmlər Academy Şəki Regional Elmi Center, Sheki- Azerbaijan, b.laborant, mecidova.reyhan@mail.ru*

***You can refer to this article as follows:***
MƏNƏFOVA, R., ‘’İlyas Əfəndiyevin Hekayələrində Xalq Yaradıcılığının İzləri’’, *Academic Journal of History and Idea,* Vol. 8, Issue 3, 2021, p.952-967.

# Следы народного творчества в рассказах Ильяс Эфендиева

**РейханМанафова***
**ORCİD: 0000-0002-9136-6782**

**Резюме**

И. Эфендиев - мыслитель и художник. Его творчество и философия питается народной духовностью. Поэтому творчество И. Эфендиева развиваясь на фоне жизни народа нашло свое направление. Неоспоримый факт, что национально-нравственные ценности нашего народа, широко используемые в творчестве писателя, играют исключительную роль в воспитании подрастающего поколения. Свидетельствует тот факт, что эти произведения имеют исключительное значение о богатстве писательского духа в развитии литературы как в художественном, так и в смысловом плане. То, что И. Эфендиев - художник, всегда живущий в гармонии с народом, выбирающий для своих работ героев из народа, - это прежде всего свидетельство его большого патриотизма. Идея азербайджанства, лежащая в основе философии И. Эфендиева, также ясно видно из этих работ.В статье проанализированы и проведены сравнения некоторых из рассказов Ильяса Эфендиева, основанных на фольклорных образцах, а также рассматривается вопрос о важности фольклорных образцов в воспитании людей.

**Ключевые слова:** народные традиции, национальное самосознание, нравственные ценности, эстетическая красота, художественный прием

**Получено: 12/05/2021** **Принято: 29/08/2021**

---

**Научный сотрудник , Research Assistant, Азербайджанская Национальная Эльмурская Академия Эки Региональный Эльми Центр, Шеки – Азербайджан,* *b.laborant, mecidova.reyhan@mail.ru*

***Ссылка на статью:***
MƏNƏFOVA, R., ‘’İlyas Əfəndiyevin Hekayələrində Xalq Yaradıcılığının İzləri’’, *академическая история и мысль*, T.8, NO.3, 2021, C.952-967.

## Giriş

İlyas Əfəndiyevin folklor nümunələrindən yararlanaraq yazdığı, "Apardı sellər Saranı", "Qarı dağı", "Qəhrəman və bülbülün nağılı", "Sağsağan", "Yusif və Esfir", "Abidin yuxusu" və başqa bu kimi hekayələri qiymətli ədəbiyyat örnəkləridir. O, folklor nümunələrindən bəhrələnmiş, onlara real don geyindirərək, tamamilə yeni formada bir əsər təqdim etmişdir. Yazıçı bu nümunələri yaradarkən xalqının keçmişinə nəzər salmış, onu yaşadığı dövrün insanları ilə müqayisə etmiş, hadisələrin oxşar və fərqli cəhətlərini analiz etmiş, onları müasirlik nöqteyi-nəzərindən işləmişdir. Beləliklə də yeni, müasir düşüncəni əks etdirən bənzərsiz bədii nümunələr yaratmışdır.İlyas Əfəndiyev yaradıcılığını yüksək qiymətləndirən Heydər Əliyev yazıçının obrazlarının xalqımızın övladlarına mənəvi saflıq və vətənpərvərlik aşılanması işində xüsusi xidmətləri olduğunu vurğulamışdır.

### 1-Milli-mənəvi, əxlaqi dəyərlərin aşılanması

"Apardı sellər Saranı" adlı hekayəsi şifahi xalq ədəbiyyatı nümunəsi olan "Sarı qız" əfsanəsinin motivləri əsasında qələmə alınmışdır. Anasını körpə yaşda itirən Saranı atası tək böyüdüb boya-başa çatdırır. Diqqətlə nəzər yetirsək görərik ki, burada xalq yaradıcılığının, xalqın estetik təfəkürünün, mənəvi-əxlaqi dünyagörüşünün bədiiləşdirilməsi yazıçının əsas məqsədidir. Belə ki, istər xalq yaradıcılığı nümunələrində, istərsə də aşıq yaradıcılığında vəfalı yar anlayışı hər zaman ön planda dayanmışdır. Bu məsələ həmişə xalqın mənəviyyatının təmsilçisi fonunda çıxış edir. Bu ədəbiyyat nümunələrində yarını əbədi itirən qarşı tərəf ömrü boyu onun məhəbbətinə sadiq qalmış, onu unuda biləməmişdir. Bu mühüm cəhət xalqın yüksək mənəviyyata sahib olmasının bir nümunəsidir. Yeri gəlmişkən onu da qeyd etməyi vacib bilirik ki, yazıçı özü də bu sadiqliyin timsalı olmuşdur.

Bu xüsusda akademik Kamal Talıbzadə yazır: "İlyas ömrünün axırına qədər evlənmədi, baxmayaraq ki, çox cavan ikən dul qalmışdı, həm də gözəl, yaraşıqlı kişi

idi... Övlad üçün özünü oda-közə vuran, onun üçün xoşbəxt gələcək haqqında düşünən narahat ata idi".[1]

Bəlkə də bu səbəbdəndir ki, İ.Əfəndiyev ömrünün sonuna qədər qəhrəmanı Soltan kimi öz Gülnarına sadiq qaldı. Soltan Saranı cəsur, qəhrəman böyütdü, qız igidlərə yoldaş, quşlara sirdaş oldu, ona at minməyi, ox atmağı öyrətdi. Artıq böyüyüb onlarla igidin içərisindən Xançobanı seçdi, sevdi, onunla əhdi-peyman bağladı.

Türk qadını və ya kişisi hər zaman öz sözlərinə əməl etmiş, andlarına, vədlərinə sadiq qalmışlar. Bu sadiqlik hekayənin əsas məzmununu təşkil edir.

Xançoban yaylağa çıxır. Yadellilər Muğana basqın edirlər, şah Saranı görür, ona vurulur və qızı atasından istəyir. Ata qızının sevgilisi olduğunu deyəndə, şah ona "səni dünya malından qane edərəm, kişi" deyir, ata imtina edir. Bu məqama bir az diqqət yetirək. Hekayədə atanın qızını şaha verməməyinin bir neçə səbəbi var. Birincisi, qızı artıq başqası ilə əhdi-peyman bağlayıb. İkincisi, onun qızı mənəviyyatca, igidlik baxımından şahdan daha yüksəkdə dayanan birinə layiqdir. Üçüncüsü, onun satılıq qızı yoxdur və o, tanımadığı insana qızını etibar edə bilməz. Bu məqamda atanın xarakteri tamamilə üzə çıxır. O, nə olursa olsun qızının xoşbəxtliyini, namusunu hər şeydən uca tutur. Axı bu, təkcə xoşbəxtlik yox, həm də namus məsələsi idi. Burada şüurla nəfs qarşı-qarşıya qoyulur və şüur qalib gəlir.

Beləliklə, şah bu dəfə qızı zorla aparmaq məcburiyyətində qalır. Həmin anda qızın "ata", deyərək bərkdən qışqırması, atanın "şaha sözüm var", deyib şahı yolundan saxlaması səhnələri olduqca təsirlidir. Lakin ən təsirli məqam atanın doğma balasını şahın qolları arasından çəkib suya atması anıdır. Oxucu bunların hamısını canlı yaşaya, hiss edə bilir. Ata qızını suya atır. “Muğan ağsaqqalı Ata Muğan gözəlini yad nəfəsdən qorumaq üçün onu-öz doğma qızını- qolları arasına alaraq, Kürün aşıb-daşan sularına atır”.[2] Burada bir atalar sözü yada düşür."İtə ataram, yada satmaram".[3] Ona görə də qızını suya atan ata onun pak, təmiz, əhdinə, vəfasına sadiq qalmasına inanır və belə bir məqamda həm qızı, həm də o özü oxucunun gözlərində daha da ucalır.

Gülxani Pənah yazır: “Haqq-ədalət, azadlıq və səadət uğrunda mübarizə, milli-mənəvi dəyərlərə hörmət yazıçının qələmə aldığı "Apardı sellər Saranı" əsərinin mövzu

---

[1]Kamal Talibzadə, “*Məhəbətin Tərənnümü”,* Ədəbiyyat Qəzeti, 3 Oktyabr, 1997, s.5.
[2]İlyas Əfəndiyev,”*Seçilmiş Əsərləri”,* Vii Cilddə, C.I , Baki, Çinar-Çap, 2002, s.405.
[3]*Azərbaycan Folkloru Antologiyası*, C.I , “*Naxçıvan Folkloru”,* Bakı – “Sabah” – 1994, s. 302.

və ideyasında əsasdır. O, xalq içərsində geniş yayılmış bu əfsanənin süjetindən istifadə etməklə, əfsanə obraz və motivlərindən bəhrələnməklə yüksək bədii təsir qüvvəsinə malik olan yeni bir sənət nümunəsi yaratmışdır. İ. Əfəndiyevin də yaratdığı bu əsərdə dövründən, zamanından asılı olmayaraq insan azadlığı, insan şəxsiyyəti, ləyaqəti, arzu və istəkləri müdafiə edilir. Süjeti xalq ədəbiyyatından götürülmüş bu əsərdə əsas ideya bəşəri ideyadır; məhəbbət, vəfa, sədaqət, etibar. Bu isə xalqımızın milli - mənəvi dəyərlərinin tərkib hissəsidir. Sara "Apardı sellər Saranı" əfsanəsinin qəhrəmanı olub, yazıçının lirik boyalarla üzərində yaradıcı surətdə işlədiyi yeni obrazdır”.[4]

Hekayədə yazıçı namus, şərəf və ləyaqətin atanın ürək yanğısından daha yüksəkdə dayandığı faktını bədii boyalarla, yüksək sənətkarlıqla nümayiş etdirə bilmişdir.

Hekayənin sonunda birbaşa xalq mahnısından bir parça təqdim edilmişdir ki, bu da yazıçının xalqa bağlılığının, mənəvi dəyərlərə hörmətinin, etik, əxlaqi, estetik hisslərinin kontekstində meydana çıxan arzusundan irəli gəlmişdir.

Bu, həm də yazıçının folklor nümunələrindən bəhrələnərək, onların əsasında yazılı bədii ədəbiyyat nümunələri yaratmaqla, xalqı öz kökünə qaytarmaq, onların qəlbində milli-mənəvi dəyərləri bərpa etmək arzusundan doğur. O, folklor nümunələrindən istifadə etməklə sanki insanları tərbiyələndirir. Onları öz kökünü unutmamağa çağırır.

## 2. Müharibə və xalqın mübarizə əzmi

İ.Əfəndiyev 1944-ci ildə "Qarı dağı" hekayəsini yazır. Hekayənin məzmunu "Kitabi-Dədə Qorqud"dan gəlir və xalqımızın yadelli işğalçılara qarşı mübarizəsini əks etdirir. Hekayəni yazıçı forma və bədii cəhətdən o qədər yüksək sənətkarlıqla işləmişdir ki, oxucu buradakı bütün hissləri mənimsəyib, onların təsiri altına düşür.

Əvvəlcə hekayənin adıyla bağlı məqama aydınlıq gətirək. "Qarı dağı", ilk baxışda sadə məntiqi izahı olan bu birləşmə özündə dərin məna yükünü gizlətmişdir. "Dağ" sözü əzəmət, ucalıq, Tanrıya yaxın olduğu üçün müqəddəs mənasını ehtiva etməklə yanaşı, həm də iztirab, ürək yanğısı kimi mənanı da daşıyır. "dağ çəkmək", "sinəsi dağlanmaq", "dağ basmaq" kimi ifadələr də bunu təsdiqləyir. Birləşmənin birinci tərəfində işlənən "qarı" sözü qoca, yaşlı, ulu sözləri ilə sinonimdir. Deməli, burada qarının iztirabından, ağrılarından, əzablarından, ürək yanğısından yaranan qoca bir dağ həm ilkin mənada, həm də mətnaltı mənada əks olunmuşdur.

[4] http://gulxani.net/ilyas_efendiyevin_yaradiciligi.htm(20.09.2021).

Hekayə acınacaqlı məzmun daşımasına baxmayaraq, insanlara, insanlığa çox böyük nümunədir. Hekayənin baş qəhrəmanı olan Ballı qarı həm də qeyrət, ədalət, əzəmət rəmzi kimi təqdim olunur.

Gülxani Pənah yazır: "Yazıçı xalq ədəbiyyatının tarında kökləmiş bu əfsanəyə yeni, bədii don geyindirir. Yadelli işğalçılar tərəfindən dağıdılan, yurdu talanan xalqın yağılara olan sonsuz nifrətini qabarıq şəkildə verməklə yanaşı, bu günkü gəncliyin də qəlbində elə murdar işğalçılara qarşı nifrət hissi tərbiyə edir, xalqını, vətənini, elini sevməyə çağırır. Bu əfsanədə vətənə, elə məhəbbət, düşmənə nifrət hissi güclüdür".[5]

Əhalinin inadından və təslim olmaq üçün dəfələrlə edilmiş təklifi rədd etmələrindən qəzəblənən şah, vəziri Taygöz Yusifi çağırıb kimsəyə aman verməməyi əmr edir. Taygöz Yusif cavana, qocaya, uşağa acımır, sağ qalmış yeddi min əhalini qılıncdan keçirir və bunun şərəfinə böyük çal-çağırlı ziyafət qurulur. Burada şahların, hökmüdarların əzazilliyi, amansızlığı, vəhşiliyi, qəddarlığı real bədii cizgilərlə təsvir olunur. Eyni zamanda, yadellilərin işğalı altında əzilib məhv edilmiş günahsız insanların acınacaqlı taleyi də real boyalarla təsvir edilmişdir. Bu əzazil, rəhmsiz "insanın", divin canı şüşədə olan kimi, zəif yeri öz övladıdır. Həmin gün oğlunun möhkəm xəstələndiyi xəbərini alan şah, cəld ziyafəti dayandırır. Soyunun davamçısı olan, yeganə varisinin xəstəliyi onu qorxudur. O, cəld oğlu Maliktacın yanına gedir, onu yatağında ağır vəziyyətdə görəndə şah əslində, aslan gildinə girmiş pişik kimi görünür.

Şah oğlunu müalicə edə biləcək təbiblərin tapılıb gətirilməsini əmr edir. Ölkədə hamı qılıncdan keçirilib, çarə tapa biləcək, dərman edə biləcək insanların hamısı məhv edilib. Bu anda falçı bir qarı tapılır. O, vəzir Taygöz Yusifə şahın oğlunu sağalda biləcəyini deyir və şahzadənin onun yanına gətirilməsini istəyir. Şah dərhal oğlunu götürüb qarının daxmasına gətirdir. Ballı qarı ana olduğu üçün şahzadəni sağaldacağını deyir.

Qarı dağlardan yığıb gətirdiyi çiçəklərdən dərman hazırlayır və şahzadəyə içirir. Beləliklə, on bir gündən sonra şahzadə ayağa qalxanda şah qarıya qızıl təklif edib, hazırladığı dərmanın sirrini ona açmasını söyləyir. Qarı isə bu sirri verə bilməyəcəyini, ancaq əvəvzində şahzadənin ömrü boyu xəstələnməməsi üçün bir dərman hazırladığını deyir. Şah dərmanı götürür, yarısını başına çəkir, yarısını isə oğluna içirir. Vəzirə

[5]http://gulxani.net/ilyas_efendiyevin_yaradiciligi.htm(20.09.2021).

yarımçıq qalan ziyafətin yenidən başlaması əmrini verir, lakin qarı "hər dəqiqənin bir hökmü var" deyəndə şah ancaq indi içdiyi o gözəl qoxulu dərmanın zəhər olduğunu anlayır.

Beləliklə, Ballı qarı vətəninin qisasını düşməndən alır. Vəzirin göstərişi ilə qarının evinin üstünə çoxlu torpaq atılır və yağışlardan sonra burada təpə yaranır, onun adına isə "Qarı dağı deyirlər". O gündən o təpə insanların ziyarətgahına, müqəddəs ocağına çevrilir. Bu xüsusda akademik Yaşar Qarayev yazır: "Ballı ana quduz yağıdan el-obanın, torpağın qisasını aldığı üçün özü də diri-diri torpağa qarışır, "Qarı dağı"na çevrilir".[6]

Beləliklə, İlyas Əfəndiyev yaradıcılığında soykökə, milli-mənəvi dəyərlərə bağlılıq, xalqın tarixinə qayıdış, zəngin mənəviyyatlı insanlara verilən dəyər yüksək sənətkarlıqla öz bədii əksini tapmışdır.

İlyas Əfəndiyevin hekayələrindən biri də "Qəhrəman ilə bülbülün nağılı" hekayəsidir. Əsərin adına gətirilən nağıl sözü artıq hekayənin folklor ruhundan qaynaqlanaraq yazıldığının sübutudur. Hekayədə təsvir olunan qəhrəman qürbətdə, meşədə şəhid olan Vətən oğludur. O, yaralı halda bir gül kolunun altında maraqlı yuxu görür və gözlərini bülbülün nəğməsi ilə açır. Bülbül yanıqlı səslə nəğmə oxuyur. Burada bir atalar sözü xatırlanır: "Bülbülü qızıl qəfəsə salmışlar, "vay, vətən!" [7] demiş". Zənnimizcə, əsərdə bülbül vəfalı sevgilinin, sadiq vətəndaşın ümumiləşdirilmiş obrazıdır. Bülbül qızılgülün üzərində oturub nəğmə deyir, deməli, o, artıq öz sevdiyinə, Vətəninə qovuşub. İndi onun nəğməsi xəyalən də olsa qəhrəmanı öz Vətəninə, sevdiyinə qovuşdurmaqdır. Beləliklə, bülbülün iç parçalayan, qəlb acıdan, ürək dağlayan nəğməsindən təsirlənən qəhrəmanın gözləri önünə sevgilisi gəlir. İlyas Əfəndiyev bu səhnəni olduqca təsirli boyalarla təsvir etmişdir. Bülbül nəğməsi qəhrəmana həm Vətənini xatırladır, həm də sevdilisinin gözəl üzünü gözləri önünə gətirir. Burada yazıçının təsvir etdiyi bülbül Vətən həsrətinin, yar məhəbbətinin nəğməkarına çevrilir. Onun səsindəki həsrət, intizar qəhrəmana həm əzabverir, həm də düşüncəsinə və ürəyinə rahatlıq gətirir. O, bülbüln səsində keçmişini xatırlayıb, bir anlıq da olsa xoşbəxt olur, çünki sevdiyinə ruhən qovuşur. Gözlərinin qarşısında dayanıb ona əl uzadan sevgilisinin əllərini tutmaq istəyən qəhrəmanın əlləri bir anda qartal qanadına çevrilir. Və o

---

[6]Yaşar Qarayev,"*Əsrə sığmayan nəsr, yaxud çiynində teatrı, səhnəni saxlayan lirika"*, İlyas Əfəndiyevin seçilmiş əsərləri C.VII, C. I , Bakı, Çinar-çap, 2002, s. 405.
[7]*Atalar sözləri,* Bakı, 2013, s.98.

göyərçinə dönmüş sevgilisini qanadları arasında səmalara qaldırır. Akademik Yaşar Qarayev yazır: "Burada əsgərdən də, ordudan da əvvəl, poeziya və əfsanə, musiqi və mahnı müharibəyə qalib gəlir! Yeddi düşmən qıran, on səkkiz yara alan əsgər yıxılır. Fəqət ağlamır. Meşədə bülbül səsini eşidəndə isə gözü yaşarır və qəribə, əfsanəvi bir yuxu görür. Gözünü açanda, indicə yuxuda onu oxşayan qızın yerində ağ bir göyərçin qalır".[8]

Qartalla göyərçinin havaya qalxması səhnəsi olduqca təsirli boyalarla təsvir olunmuşdur və oxucuda dərin mərhəmət və məhəbbət duyğuları aşılayır. "Göyərçin qanadlarını açaraq havaya qalxdı. Oğlan onu tutub saxlamaq istəyirmiş kimi əllərini qaldırdı və birdən bu əllər qartal qanadına çevrilib onun ağır vücudunu qəribə bir yüngüllüklə yerdən üzdü.

Onlar getdikcə bir-birinə yaxınlaşıb, nəhayət, qoşalaşdılar. Sonra alov rəngli buludlardan keçərək, göylərin sakit, mavi ənginliklərinə yol aldılar...

Gələn bahar o qərib məzardan yabanı bir qızılgül qalxdı. Bülbül gəlib onun budaqlarında özünə yuva qurdu. İndi o vaxtdan bəri hər bahar o tək məzar üstündə bir bülbül oxuyur. Onun nəğmələri əzəli və qadir məhəbbətin bitmək bilməyən əfsanələrindən danışır" .[9]

Bununla da qəhrəman gözlərini əbədi yumur, bu hadisə isə əfsanəyə çevrilərək xalqın yaddaşında əbədi yaşayır. Əsərdə təsvir olunan əfsanə və qəhrəmanın gözünə görünən nur kədərdən, müharibədən daha qüvvətli təsir bağışlayır. Axı bu nur elindən aralı düşən, dünyadan nakam köçən bir qərib şəhidin meşədə tənha qalan məzarının əbədi işığıdır.

### 3.Uşaqların düzgün tərbiyə olunması cəmiyyətin gələcəyinin təminatıdır

İlyas Əfəndiyevin maraqlı əsərlərindən biri də "Sağsağan" hekayəsidir. Hekayədə balaca bir oğlanın atasının tüfəngi ilə sağsağan quşunu vurub öldürdükdən sonra keçirdiyi psixoloji sarsıntılar böyük məharətlə təsvir olunmuşdur. Yazıçı kiçik bir uşağın tutduğu əmələ görə öz nənəsi tərəfindən psixoloji təyziqlərə məruz qalaraq əzab çəkdiyini, mənəvi iztirabını elə qələmə almışdır ki, oxucu bu hissləri qəhrəmanla bərabər yaşaya bilir. Uşaq sağsağana güllə atandan sonra onu əlinə alır, quşun öldüyünü görüb çox qorxur. Qorxmuş halda nənəsinin yanına qaçıb hadisəni nənəsinə danışanda,

[8] Y. Qarayev, *a.g.e.*, s.403.
[9] İ. Əfəndiyev, *a.g.e.*, s.404.

nənəsi sanki dəhşətli bir cinayət törətmiş quldur kimi onu mühakimə etməyə başlayır. "Ay irtməkli sünnünün oğlu (atam sünni idi və nənəmin də sünniləri görməyə gözü yox idi),-dedi,- adam da sağsağana güllə atar?! İtil gözümdən!

-Allah, -dedi, -sən bu dilbilməz nəvəmin günahının nədamətini mənim oğlanlarımdan uzaq elə!".[10]

El arasında belə bir məsəl var: "Sağsağana toxunmaq olmaz". Xalqın mifoloji düşüncəsində sağsağan insanlara xəbər gətirən bir quş kimi xarakterizə edilir. Hətta sağsağanın ötdüyünü eşidən hər bir insan o anda qeyri-ixtiyari olaraq, "xeyir xəbər gətirəsən", deyir. Bu inanca görə də indi nəvəsinin sağsağanı öldürməsindən əməlli başlı qorxuya düşən nənə dayanmadan dua edir, təki pis bir hadisə baş verməsin.

Bu, xalqın inancı ilə bağlı hadisədir və İlyas Əfəndiyev xalq arasındakı bu inancdan istifadə edərək ona bədii don geyindirmişdir.

Əsərdə uşağın nənəsinin qarğa ilə bağlı danışdığı nağılı xatırlaması isə hekayəyə gətirilən daha bir folklor nümunəsidir. Nağılda ölkənin padşahı ən gözəl quş balasını axtarıb tapmağa qarğaya tapşırır. Qarğa çox gəzdikdən sonra belə qərara gəlir ki, öz balasını aparsın. Şahın hüzuruna gəlib, "Qibleyi-aləm, dünyada bundan gözəl quş balası tapmadım",[11] deyir. Yazıçı el məsəlindən istifadə edərək gözəl ədəbi-bədii nümunə yaratmışdır.

Fatma nənənin sağsağanla bağlı əhvalatından sonra oğlanın beynində günah hissi yuva salır, vicdanı onu ömrünün sonuna qədər rahat yaşamağa qoymur. Harada bir sağsağan səsi eşitsə, dərhal həmin hadisə gözlərinin qabağına gələr və nənəsinin sözləri onun vicdanını sızladardı. Deyəsən, o, törətdiyi hadisədən çox nənəsinin hökmündən qorxmuçdu. Çünki "Sonralar da o sağsağan mənim yadımdan çıxmırdı və mənə elə gəlirdi ki, bunun səbəbi sağsağana güllə atmağın günah olduğunu söyləyən nənəmin hökmündəki qüvvət idi",[12] deyirdi.

Ümumiyyətlə, İlyas Əfəndiyev əsərlərinin adına nağıl sözünü gətirməklə, sanki onların xalq ədəbiyyatına bağlılığına işarə etmişdir. Yazıçı əsərlərində nağıl, əfsanə, rəvayətlərdən istifadə edərək onları yeni ampulada işləmiş, müasir baxış bucağından yanaşaraq çox gözəl bədii nümunələr yaratmışdır. Elə "Ovçunun nağılı" adlı hekayədə

---

[10] İ. Əfəndiyev, *a.g.e.*, s. 234.
[11] İ. Əfəndiyev, *a.g.e*, s., 234.
[12] İ. Əfəndiyev, *a.g.e.*, s. 235.

də bu motiv özünü göstərir. Bu, yazıçının uşaqlar üçün yazdığı hekayələrindən biridir. Hekayədə ovçunun ova gedib, gecəyə qalması və bu zaman yaşadığı maraqlı macəra təsvir olunur. Ovçu ovda yorulur, yatmaq üçün armud ağacına çıxır. Orada dadlı armudlardan yeyib, yatır. Gecənin bir aləmində hənirti eşidib oyanır, yanında bir ayının ona armud uzatdığını görüb qorxur. Amma yenə də armudu səssizcə götürür. Ayı növbəti dəfə ona armud uzadır. Bu dəfə armudu götürən ovçu ona "sağ ol" deyir. Ayı ağacdan yıxılır və səhərə qədər yıxıldığı yerdən tərpənmir. Səhər ovçu astaca ayıya yaxınlaşır, görür ki, ayı ölüb. Qayıdandan sonra bu hadisəni ovçu dostlarına danışır. Onlar ayının ovçunu görmədiyini, sadəcə armudu işığa tutub baxdığını, səsdən qorxub yıxıldığını və belini sındırdığını deyirlər. El arasında məsəl var "Armudun yaxşısını meşədə ayı yeyər",[13] deyərlər. Ayı da armudları bir-bir dərib baxırmış görsün ki necədir. "heç sənin orda olmağından ayının xəbəri yox imiş. O, armudu sənə vermirmiş, işığa tutub bxırmış ki, görsün yetişib ya yox; çünki ayı kal armud yeməz".[14]

**4.Dini-əfsanəvi motivlərin əks olunması**

İlyas Əfəndiyevin yaradıcılığında xalq yaradıcılığının bir hissəsi olan dini-əfsanəvi motivlərdən yaradıcı şəkildə istifadə olunmuş maraqlı hekayələrə də rast gəlirik. Bu hekayələrin bəzilərində yazıçı mənbəni olduğu kimi saxlamış, bəzilərində isə onları öz ideya və fikirlərinə uyğun işləmiş, mövzunu bu ideyaya tabe etmişdir.

Beləliklə, İlyas Əfəndiyevin novatorluğunun daha bir nümunəsi "Yusif və Esfir" hekayəsində öz bədii əksini tapmışdır. Hekayənin məzmunu bizə A.S.Puşkinin "Balıqçı və balıq" mənzum nağılını xatırladır. Əvvəlcə əsərdəki obrazların adı ilə bağlı məqama aydınlıq gətirək. Məlumdur ki, Yusif "dini əfsanələrə görə, gözəlliyi ilə məşhur bir şəxs (Yaqub peyğəmbərin övladlarından biri) olub, klassik ədəbiyyatda gözəl kişi mənasında işlənmişdir".[15] Lakin İlyas Əfəndiyevin yaratdığı Yusif obrazı heç də öz zahiri gözəlliyi ilə insanların ağlını başından almırdı. Əksinə, yazıçı onun zahiri görkəmini çox çirkin təsvir etmişdir. Amma məsələ bunda idi ki, Yusifin gözəl qəlbi, təmiz ürəyi vardı. Esfir adına gəldikdə bu ad "temperamental, səlahiyyətli, diqqətli, şanslı, ciddi, uçucu, səxavətli, dost müasir, şən, aktiv, yaradıcı" kimi mənaları özündə etiva edir.[16]

---

[13] *Atalar sözləri*, s.44.
[14] İ. Əfəndiyev, *a.g.e.*, s.392.
[15] https://azerdict.com/az/izahli-luget/yusif(20.09.2021).
[16] https://az.surnameanalysis.com/Esfir-adinin-manasi.html(20.09.2021).

Yazıçı Esfiri olduqca gözəl xarici görkəmi ilə seçilən bir obraz kimi işləmişdir. Yuxarıda Esfir adı üçün sadalanan bütün keyfiyyətlər bu obrazı tamamilə xarakterizə edir. Buna görə də düşünürük ki, obrazlara verilən bu adlar elə-belə seçilməmişdir.

Yazıçı əsərlərinə nağıl və əfsanə motivləri gətirərək obrazların lirik-psixoloji keyfiyyətlərini aça bilmişdir.

Hekayədə Yusif adlı balıqçı, onun arvadı Esfirin çayın kənarında yerləşən kiçik evləri təsvir olunub. Gündəlik həyatını balıq tutmaqla keçirən Yusif artıq qırx ildir ki, ibadət edirdi. Yusifin arvadı Esfir isə artıq qırx il idi ki, ərinin gətirdiyi balıqları bişirər, yemək yedikdən sonra pəncərənin qabağında oturub çayda çimən gənc oğlan və qızlara baxıb həsəd aparardı.

Yusif inanırdı ki, 40 illik gecəli-gündüzlü ibadətdən sonra Allah onun üç arzusunu həyata keçirəcəkdir. Çünki övlad sahibi olmaqdan məhrum olan Yusifə "Daşa Girən Kahin İbrahim demişdi ki, kim qırx il, hər gün, hər gecə Allaha ibadət eləsə, Allah onun üç xahisini yerinə yetirər".[17]

Beləliklə, qırx il boyunca bircə gün də ibadətini axsatmayan Yusif nəhayət ki, Allahdan övlad istəmək üçün şans əldə etdiyinə sevinirdi. Lakin gözlədiyi kimi olmadı. Çünki arvadı Esfir gözlənilmədən ərinə yalvarır ki, Allahdan onun üçün gözəllik istəsin. Arvadının keçmiş gözəlliyinin həsrətini çox çəkən Yusif düşünür ki, Allahdan onun üçün gözəllik diləyər və sonra gənc və gözəl arvadından bir uşağı olar. Bu məqam bizə xalq yaradıcılığının məhsulu olan "Yusif və Züleyxa" dastanını xatırlatdı. Belə ki, cavanlaşma, gözəlləşmə məsələsinə həmin dastanda da rast gəlirik. Burada da dastanın qəhrəmanı Züleyxa məhz Yusifin köməyi ilə cavanlaşır. Düşünürük ki, İlyas Əfəndiyev həmin dastanın motivinə bir az da nağıl əlamətləri qataraq, onu bədiiləşdirmişdir.

Təəsüf ki, hekayənin qəhrəmanı Yusifin ilk arzusundan sonra arvadı tamamilə dəyişir. O, ərinin üzünə belə baxmır, gənc oğlanlarla vaxtını keçirirdi. Yusif bundan qəzəblənib Allahdan ikinci arzusunu istəyir. Bu dəfə o, Allahdan Esfirin ayıya döndərməyi istədi. Bundan sonra Ayı Yusifin qapısından kənara getmir, gözlərini eve zilləyib baxırdı. Yusif hər gün onun qabağına yemək qoyurdu. Amma ona qarşı hələ də qəzəbli idi. Ayının yanında oturub "Nə var? Niyə yazıq-yazıq baxırsan? Allah mənim arzumla səni gözəl eləyəndə, niyə birdən-birə elə zalım oldun? Niyə fikirləçmədin ki,

---

[17] İ. Əfəndiyev, *a.g.e.*, s. 211.

axı, Yusif o gözəlliyi sənə qaytarmaq üçün qırx il hər gün Allaha dua eləyib? Allahın köməyi ilə səndən övlad gözləyib! Hə?! Niyə dinmirsən, zalım, vəfasız qadın?”, [18] deyir.

Yazıçı burada insan psixologiyasının dərinliklərinə enərək, güclü psixologizm yaratmışdır. O, Yusifin nitqindəki sözlərlə onun təbii obraz kimi, daxili aləmini, düşüncəsini, hisslərini, həyəcanlarını oxucuya çatdırmışdır.

Esfirin simasında isə insan psixologiyasının başqa bir tərəfi açıqlanır, insan xislətinin, xarakterinin dəyişkənliyi üzə çıxarılır.

Esfir ayı olduqdan sonra bütün gün ərinin arxasınca gəzir. Bunun da öz səbəbi var. Çünki o, dərk edir ki, onu bu vəziyyətdən yalnız əri Yusif xilas edə bilər. Burada insanın çətin vəziyyətə düşərkən acizləşməsi, yazıqlaşması kimi psixoloji məsələlər oxucuya təqdim olunur.

Yusifin son arzusu Esfirin yenidən əvvəlki halına qayıtması oldu. Allah onun bu arzusunu da həyata keçirdi.

Yuxarıda da qeyd etmişdik ki, “Yusif və Esfir” hekayəsi bizə A.S.Puşkinin “Balıqçı və balıq” nağılını xatırladır. Fikrimizi əsaslandırmaq üçün nağıldan bir parçanı nəzərdən keçirək.

…Toruna bir balıq düşdü dənizdən.
Adi balıq deyil, qızıl balıqdı.
Elə ki, dənizdən sahilə çıxdı
İnsan tək danışdı, dil açdı birdən;
Dedi: "Gəl ayırma məni dənizdən.
Qoca, burax suya, rəhm elə mənə,
Könlün nə istəsə, verərəm sənə".[19]

Həmin nağılda qoca balıqçının toruna düşən qızıl balıq onun arzularını yerinə yetirir. Lakin İlyas Əfəndiyevdə məsələ bir az fərqlidir. Yazıçı insan psixologiyasını açıb göstərmək üçün köməyi qızıl balıqdan deyil, Allahdan istəyir. Burada oxşar cəhətlər ondan ibarətdir ki, hər iki əsərdə arzulara sahib olan şəxslər qadınlardır. “Balıqçı və balıq” nağılında qadının hökmran olmaq arzusu, “Yusif və Esfir”

---

[18] İ. Əfəndiyev, *a.g.e.*, s. 212.
[19] http://meneviservetimiz.az/az/fine-art/item/339-baliq%C3%A7i-v%C9%99-baliq-na%C4%9Fili(20.09.2021).

hekayəsində gənc olmaq arzusu kimi təsvir olunur. Hər iki əsərdə arzuların məhv olmasının səbərkarları qadınlardır.

Lakin dediyimiz kimi, İlyas Əfəndiyev bu motivi özününküləşdirə, ona milli ruh verə bilmişdir. Burada xalqımızın çoxəsrlik inancı qorunub saxlanır. Hekayədə İlyas Əfəndiyev qadını islah etmək məqsədi ilə onun Allah tərəfindən ayıya dönüşdürüldüyünü, islah olduqdan sonra isə yenidən insana çevrildiyini bədii priyom kimi istifadə edərək oxucunu doğru yola yönəldir.

İlyas Əfəndiyev yenə də dini-əfsanəvi motivlərdən istifadə edərək daha bir hekayəsini, "Abidin yuxusu"nu yaratdı. Hekayənin əsas qəhrəmanı 40 il ibadətlə məşğul olub özünü Allahın hüzurunda hiss edən Abiddir. O, tamamilə günahsız olduğuna əmin olaraq özünü xoşbəxt hesab edirdi. Lakin bir gecə Peyğəmbər Əleyhissəlam onun yuxusuna girdi və üzünü Abiddən yan döndərdi. Abid buna çox təəccübləndi. O, Peyğəmbərdən bunun səbəbini soruşanda, Peyğəmbər dedi: "Qırx ildir ki, sən sənə xidmət eləyən bir məxluqu incidirsən. Onun ləyaqətini təhqir edirsən".[20]

Abid bunun nə demək olduğunu anlamadı, lakin Peyğəmbər buyurdu ki, 40 ildir ki, sən sənə ibadət zamanı cənnətdən bir nar gətirən quşa bir ovuc dən verməmisən, ona təşəkkür etməmisən. Sən elə bilmisən ki, bu, onun borcudur. Abid nə qədər and-aman edib söylədisə də ki, Vallah mən bunu qəsdən eləməmişəm, mənim bundan xəbərim olmayıb, bu, mənim ağlıma da gəlməyib xeyri olmadı.

Peygəmbər: "Gərək gələydi. Allah yaxşılığın, fənalığın nə demək olduğunu bilib, dərk etmək üçün sənə ağıl verib! Ürək, hissiyyat verib! Sənə müqəddəs kitab göndərib, səni əşrəfi-məxluqat eləyib. Get, özün düşün və insanları da yaxşılığın, fənalığın nə demək olduğunu dərk etmək üçün düşünməyə çağır".[21] Əslində, İlyas Əfəndiyev bu çağırışı insanların vicdanını oyandırmaq, onlara yaradılanların əşrəfi olduqlarını xatırlatmaqla, insanlarda yüksək mənəvi keyfiyyətlərin tərbiyə olunmasına çalışırdı. Ümumiyyətlə, İlyas Əfəndiyev yaşadıqları dövrdə dindən uzaq düşüb, vicdandan azad insanlara ağılla hərəkət etməyi, mənasız, boş vədlərə uyub insanlıqlarını itirməməyi söyləmək üçün çox gözəl bədii priyomdan istifadə etmişdir. Sanki o, bununla xalqı öz soykökünə, keçmişinə yenidən bağlamaq istəmişdir. Bütün bunları ifadə etmək üçün isə əfsanələrdən, nağıllardan gözəl vasitə ola bilməzdi.

---

[20] İ. Əfəndiyev, *a.g.e.,* s. 228.
[21] İ. Əfəndiyev, *a.g.e.,* s. 229.

## Nəticə

İlyas Əfəndiyev bütün maneələri aşaraq, hissləri və düşüncələri, mənfi və müsbətləri olan təbii insan surətlərini ədəbiyyata gətirərək lirik-psixoloji janrın əsasını qoydu. Yazıçının folklora müraciət edərək, müasir həyatı əks etdirən problemlərə toxunması elə-belə deyildi. O, təbii hissləri, insanların gündəlik yaşantılarını sosializm realizminin rupor qaydalarından üstün hesab edirdi. Bunun üçün isə folklora müraciət etmək ən yaxşı vasitə idi. Çünki yazıçı həmin təbiiliyi keçmişdə, soykökdə görürdü, bunun köklərini folklorda axtarmağın zəruriliyini dərk edirdi.

İlyas Əfəndiyevin bütün əsərləri insanlarda inam, etiqad, doğruluq, dürüstlük, tamahkar olmamaq, şükür etməyi bacarmaq, özgənin haqqına girməmək kimi daxili keyfiyyətlərin aşılanmasında mühüm əhəmiyyətə malikdir. Buna görə də İlyas Əfəndiyevin yaradıcılığında istifadə olunan folklor nümunələrinin hər biri böyük tərbiyə məktəbidir. O, öz əsərlərində xalqının yüksək əxlaqi keyfiyyətlərini, sevincini, kədərini böyük yaradıcılıq məharəti ilə qələmə almış, onun fədakar, qeyrətli insanlarına qarşı yüksək məhəbbət, vətənini zəbt etmək istəyənlərə qarşı isə nifrət hisslərini aşılaya bilmişdir. Bununla da oxucuda vətənə, torpağa, milli-mənəvi dəyərlərə sevgi, hörmət və sədaqət hissini artırmağa çalışmışdır. O, xalq ədəbiyyatı örnəklərindən əsərlərinin bədii dəyərini artırmaq məqsədilə istifadə etmiş, yeni ampulada gözəl nümunələr yaratmışdır.

**Ədəbiyyat siyahısı**

ATALAR SÖZLƏRİ, Nurlan, Bakı 2013.

AZƏRBAYCAN FOLKLORU ANTOLOGİYASI. C.I, "*Naxçıvan Folkloru*", Sabah, Bakı 1994.

ƏFƏNDİYEV, İ., "*Seçilmiş Əsərləri*", C.VII, C.I, Çinar-Çap, Bakı 2002.

QARAYEV, Y., *Əsrə sığmayan nəsr, yaxud çiynində teatrı, səhnəni saxlayan lirika, İlyas Əfəndiyevin əsərləri,* Çinar-çap, Bakı 2002.

TALIBZADƏK, *Məhəbətin Tərənnümü,* Ədəbiyyat Qəzeti, 3 Oktyabr, 1997.

http://gulxani.net/ilyas_efendiyevin_yaradiciligi.htm(20.09.2021).

http://meneviservetimiz.az/az/fine-art/item/339-baliq%C3%A7i-v%C9%99-baliq-na%C4%9Fili(20.09.2021).

https://az.surnameanalysis.com/Esfir-adinin-manasi.html(20.09.2021).

https://azerdict.com/az/izahli-luget/yusif(20.09.2021).